## QALMAMIŞAM



Məmməd Qədir

Qəlbimə o qədər dağlar çəkilib,
Mən də əyilmişəm, dağ qalmamışam.
Meyvəm yağmalanıb, barım talanıb,
Sınıb ağaclarım, bağ qalmamışam.

Gölümə nə sona, nə də qaz düşüb,
Bəxtimə sırsıra, qar, ayaz düşüb,
Qar, ayaz çıxmamış, qara yaz düşüb,
Göyərib, saralıb, ağ qalmamışam.

Pöhrə arzularım quraqdan keçib,
Sevinc mənə gülüb uzaqdan keçib,
Haqlıykən işlərim nahaqdan keçib,
Haqqım tapdalanıb, haqq qalmamışam.

Nə qədər ulayım dərd xarabasın,
Kədər məni yuyur, dərd qara basır,
Kim dartar bu boyda dərd arabasın,
Elə yaxşı olub sağ qalmamışam...

## GÖYÜMÜ VER

Kiçik qalır xatirədə,
Adamlar, böyümür, Allah.
Heç nədən yaratdıqların,
Hər şeylə öyünür, Allah.

Yaranan yoxdan oyanıb,
Qəlb çıxıb oxdan, dayanıb,
Ürəyim çoxdan dayanıb,
Həsrətim döyünür, Allah.

Dünya olub şərə meydan,
İşləmir çox ölçün, qaydan,
Məndə yaratdığın şeytan,
Dağıdıb köyümü, Allah.

Kimdən tutsun yaratdığın,
Tükənib sevgi, - qatdığın,
Qaytar hər gün saraltdığın,
Yaşılı, göyümü, Allah.

Fərsizəm, naqisəm, sağ ol,
Nəyəm, hansı kəsəm, sağ ol,
Yerimi vermisən, sağ ol,
Ver indi göyümü, Allah...

## NECƏ BAĞLAMISAN?

Baş aça bilmirəm, gülüm,
Başı necə bağlamısan?
Yanağına muncuq kimi
Yaşı necə bağlamısan?

Dərdindən gülməli, - könlüm,
Haray salıb dəli könlüm,
Uçub Sizə gəlir könlüm
Quşu, necə bağlamısan?

Baxmadın bir gileyimə,
Çökdün arzu, diləyimə,
Dərdin dəniz, taleyimə,
Daşı necə bağlamısan?

Ümid nə qədər uzanar,
Get göstər ümid yozana,
Bax səbrim bişən qazana,
Daşır, necə bağlamısan?

Hər günümdən ah görünür,
Nə Gün, nə sabah görünür,
Qəbrimdən Allah görünür,
Naşı, necə bağlamısan?!!